Uşaqlar üçün Müqəddəs Kitab

təqdim edir



# Quyu yanındakı Qadın

Müəllif: Edward Hughes

İllüstrasiya edən: Lazarus

Uyğunlaşdıran: Ruth Klassen

Tərcümə edən: Günay Əsədova

Təqdim edən: Bible for Children
www.M1914.org

©2017 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.

İsa və Onun şagirdləri Samariyadan keçirdilər.  Onlar Sixar adlanan şəhərə gəldilər.



Orada Sixarlıların içmək üçün su çəkdikləri quyu var idi.  İsraillilərin atası Yaqub uzun illər əvvəl bu quyunu qazmışdı.



Günortaçağı yəqin ki, günəşli və isti idi. Şagirdlər yemək almaq üçün Sixara gedərkən, İsa yorğun halda quyunun yanında oturdu.





İsa tək idi, lakin
qısa müddətlik.
Sixarda yaşayan bir
qadın su çəkmək
üçün gəldi.
İsa ona dedi:

“Mənə
su ver”.

Qadın təəccübləndi. O dedi:
“Bu necə olur ki, Yəhudi olaraq məndən,
Samariyalı qadından
içməyə su istəyirsən?”
O vaxt Yəhudilər
Samariyalılarla
ünsiyyətdə
olmurdular!



İsa ondan “Əgər Mənim Kim olduğumu bilsəydin, sən Məndən həyat suyu istəyərdin”.





Qadın İsaya
dedi: “Ağa,
su çəkmək
üçün bir şeyin
yoxdur, quyu da dərindir.
Bəs o həyat suyunu haradan
götürəcəksən? Sən bu quyunu bizə
verən atamız Yaqubdan da üstünsən…?”



İsa qadına dedi: “Bu sudan içən hər kəs yenidən susayar”. “Amma Mənim ona verəcəyim sudan kim içsə, heç vaxt susamaz.

Lakin ona verəcəyim su onun daxilində əbədi həyat verən bir su qaynağına çevriləcək”. Qadın dedi: “Ağa, bu suyu mənə verin...”



İsa qadına “get ərini çağır və buraya gəl” dedi. Qadın da Ona “ərim yoxdur” söylədi. İsa ona dedi: “Sənin beş ərin olub. İndi səninlə yaşayan da ərin deyil”.





Qadın İsanın peyğəmbər olduğunu dərk etdi. O, İsa ilə Allaha harada ibadət etmək haqqında mübahisə etməyə çalışdı: “Müqəddəs dağ Yerusəlimdir, yoxsa Samariya?” İsa dedi ki, həqiqi ibadət edənlər Ataya ruhda və həqiqətdə ibadət edirlər.



Qadın İsaya cavab verdi: “Bilirəm ki, Məsih gələcək”. “O gələndə bizə hər şeyi deyəcək”. İsa ona dedi: “Səninlə danışam Odur, O, Mənəm”. Bu arada İsanın şagirdləri gəldilər. Qadın öz bahalı su səhəngini quyunun yanında qoydu və şəhərə qayıtdı.



Qadın Sixardakı adamlara dedi: “Gəlin, etdiyim bütün əmələri mənə söyləyən Adama baxın”. “Bu, Məsih ola bilər?” Adamlar İsanı görmək üçün şəhərdən çıxdılar.



Bu arada şagirdlər İsaya yemək ye dedilər. Ancaq İsa dedi: “Mənim yeməyim Məni Göndərənin iradəsini yerinə yetirmək və Onun işini tamamlamaqdır”. Onun işi insanları Allaha gətirmək idi.



Samariyalıların çoxu qadının sözünə görə İsaya iman etdilər. Onlar İsadan onlarla



qalmasını xahiş etdilər; İsa iki gün orada qaldı. Daha çox adam İsanın Öz Sözünə görə iman etdi.

Onlar dedilər: "…Biz artıq sənin sözlərinə görə iman etmirik, elə özümüz də eşidib bildik ki, həqiqətən, dünyanın Xilaskarı budur".



# Quyu yanındakı Qadın

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

Yəhya 4

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130


Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**